***İşğaldan azad edilmiş ərazilərdə aparılan yenidənqurma, abadlıq və bərpa işləri geniş vüsət alıb. Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyeva mütəmadi olaraq həmin ərazilərə səfərlər edir, yeni müəssisələrin təməlini qoyur, tikintisi başa çatdırılanların isə açılış mərasimlərində iştirak edirlər. İşğaldan azad edilmiş ərazilərə səfərlərin sayı artıq 35-ə çatıb. Təkcə Şuşaya 7 dəfə səfər ediblər. Bunun nəticəsidir ki, Qarabağda aparılan bərpa-quruculuq işləri beynəlxalq ictimaiyyətin də marağına səbəb olub.***



# İşğaldan azad edilmiş ərazilərdə aparılan bərpa-quruculuq işlərinə böyük töhfə



Son 17 ildə Azərbaycanın beynəlxalq aləmdə geniş təbliğində, onun humanist və milli-mənəvi dəyərlərə sadiq dövlət imicinin formalaşdırılmasında xüsusi rolu olan, milyonlarla insanın ümid və pənah yerinə çevrilmiş Heydər Əliyev Fondu işğaldan azad edilmiş ərazilərdə mədəni və dini abidələrin bərpasında yaxından iştirak edir. Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva bugünlərdə Ağdam və Ağcabədi rayonlarına səfərləri çərçivəsində Ağdam Cümə məscidində bərpa işlərinin gedişi ilə tanışlıq zamanı bir daha bunun şahidi olduq. Dövlətimizin başçısı dedi ki, bərpa işlərini Heydər Əliyev Fondu öz hesabına görür. Qeyd etdi ki, bu, Heydər Əliyev Fondunun Azərbaycanın milli-mənəvi dəyərlərinin qorunmasına növbəti töhfəsidir.

Xatırladaq ki, azad edilmiş torpaqlarda Heydər Əliyev Fondunun dəstəyi ilə hazırda 8 məscidin əsaslı təmiri, bərpası və tikintisi həyata keçirilir. Ağdam Cümə məscidi, Şuşada Yuxarı Gövhər ağa, Aşağı Gövhər ağa, Saatlı məscidləri əsaslı təmir edilir. Şuşa şəhərində yeni məscidin inşasına start verilib. Zəngilan şəhərində, Hadrutda və Daşaltıda məscidlərin yenidən qurulması və tikintisinə başlanıb. Heydər Əliyev Fondunun işğaldan azd edilmiş torpaqlarda milli-mənəvi dəyərlərimizin qorunması istiqamətində həyata keçirdiyi işlər bununla bitmir.

Ümumiyyətlə, Heydər Əliyev Fondu Qarabağda, xüsusilə Şuşa şəhərində tarixi mədəniyyət abidələrinin, dini ziyarətgahların təmiri və bərpası prosesində yaxından iştirak edir. Fondun layihəsi çərçivəsində yerli və xarici mütəxəssislərin iştirakı ilə bölgədəki ziyarətgahların bərpası, konservasiyası və yenidən qurulması həyata keçirilir. Möhtərəm Prezidentimiz hələ 2021-ci il martın 16-da Şuşa şəhərinə səfəri zamanı demişdir ki, Heydər Əliyev Fondu şəhərin bərpasına öz sanballı töhfələrini verəcək: “Vaqifin məqbərəsində tezliklə bərpa işləri başlanacaq. Məqbərənin əvvəlki görkəmi bərpa ediləcək. Artıq işlərə start verilib. Bunu, həmçinin Molla Pənah Vaqifin büstünün bərpası layihəsini Heydər Əliyev Fondu öz vəsaiti hesabına icra edəcək...”

Artıq bu işlər də başa çatdırılmış, hətta Vaqif Poeziya Günləri çərçivəsində Heydər Əliyev Fondunun təşəbbüsü ilə Şuşadakı Yaradıcılıq Mərkəzində “Yaddaş. Fotoqrafik tarix”, Rəsm Qalereyasında “Qarabağ – Azərbaycan mədəniyyətinin incisidir” və Xalçaçılıq Qalereyasında “Yenidən doğma diyarda. Qarabağın sənət inciləri” adlı sərgilərin açılışı olub. Şuşada yaradılan Rəsm Qalereyasında isə “Qarabağ – Azərbaycan mədəniyyətinin incisidir” sərgisi təqdim edilib.

Qarabağ Azərbaycan incəsənətinin və mədəniyyətinin mərkəzi kimi qədim tarixə malikdir. İşğal dövründə talan olunmuş muzeylərdə Azərbaycana məxsus tarix və mədəniyyətin qiymətli nümunələri, dünyada məşhur olan Azərbaycan xalçaları və görkəmli şəxsiyyətlərimizin xatirə əşyaları, həmçinin digər dəyərli eksponatlar olmuşdur. Sözügedən məhv edilmiş xəzinələr təkcə Azərbaycanın deyil, həm də bütün dünya mədəniyyətinin nümunələri idi. Heydər Əliyev Fondunun təşəbbüsü və təşkilatçılığı ilə indi milli-mənəvi dəyərlərimizin bərpası istiqamətində mühüm əhəmiyyətli tədbirlər həyata keçirilir.

***Məlahət İBRAHİMQIZI,***
***Milli Məclisin deputatı***

Xalq qəzeti .- 2022.- 16 fevral.- S.3.